AZCON HOLDING

Müraciət et

# "Rəqəmsal körpü" Təcrübə Proqramı

## AZCON Holding şirkətlərində və tərəfdaş müəssisələrdə İT istiqamətində təcrübə və təqaüd proqramı elan edilir!

### Proqram haqqında

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi və AZCON Holding-in birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən proqram İT sahəsində təhsil alan sonuncu kurs bakalavr tələbələrinə akademik biliklərini real iş mühiti ilə birləşdirmək imkanı verir. 2026-cı ilin fevral – may aylarını əhatə edəcək proqram iştirakçılara müvafiq sahə üzrə təcrübəli mütəxəssislərlə birgə çalışmaq, onların bilik və bacarıqlarından yararlanmaq, həmçinin peşəkar iş mühitini yaxından tanımaq fürsəti yaradacaq. Təcrübə dövründə iştirakçılar müxtəlif öyrənmə və inkişaf tədbirlərinə cəlb ediləcək, o cümlədən onlara mentorluq dəstəyi və rəqəmsal tədris platformalarına çıxış imkanları veriləcək.

### Proqram nə vəd edir?

- Biliklərin tətbiqi
- Mentorluq və inkişaf dəstəyi
- Karyera idarəetməsində dəstək
- Aylıq təqaüd

### Seçim mərhələləri:

1. Müraciətlərin proqrama uyğunluğunun ilkin qiymətləndirilməsi
2. İmtahan (Məntiqi təfəkkürün və analitik düşünmə qabiliyyətinin yoxlanılması)
3. Müsahibə

### Necə müraciət etməli?

- QR kodu oxudub veb-sayt linkinə daxil olmaqla;
- azcon.az/az/internship saytına daxil olaraq müvafiq müraciət platforması vasitəsilə.

Qeyd: Proqram, eyni zamanda ali təhsil müəssisələri tərəfindən zəruri hesab edilən "Diplomqabağı istehsalat təcrübəsi"ni də əhatə edir. Seçim prosesini uğurla keçən hər bir tələbə təhsil müəssisəsindəki akademik göstəriciləri, imtahan və müsahibə nəticələri nəzərə alınmaqla AZCON Holding şirkətlərindən birində və ya Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində təcrübəyə cəlb olunacaq. Tələbələrin təcrübə keçdiyi müəssisədən asılı olmayaraq onlara təqdim edilən imtiyaz və imkanlar bərabər əsaslarla təmin ediləcək.

**Son müraciət tarixi: 30.11.2025**

### Peşəkar inkişaf tərəfdaşlarınız:

AZERBAIJAN AIRLINES
ADY Azərbaycan Dəmir Yolları
ASCO
BAKU SHIPYARD
azercosmos
AZTELEKOM
AZINTELECOM
azərpoçt
NAIC National Artificial Intelligence Center
Azercell
AYNA Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi

